# Multikulturalizmin həyat tərzinə çevrilməsi ümummilli lider Heydər Əliyevin Azərbaycana töhfəsidir

## *Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin müdiri Novruz MƏMMƏDOVLA müsahibə*



**– Novruz müəllim, müsahibənin mövzusu ölkəmizin multikultural dəyərləri olsa da, Azərbaycan ordusunun Qarabağ bölgəsində keçirdiyi son uğurlu hərbi əməliyyatlara ölkə ictimaiyyətinin münasibəti məsələsinə toxunmaq istərdim. İşğal altında qalmış torpaqlarımızın bir hissəsinin qaytarılması milli və ya dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlarımızın sevinc və qüruruna, onlarda yaxın qələbəyə inam hissinin daha da möhkəmlənməsinə səbəb olmuşdur.**

– Həqiqətən də, Azərbaycan dövlətinin istər siyasi-iqtisadi və mədəni, istərsə də hərbi sahədə qazandığı nailiyyətlərin arxasında dayanan mühüm amillərdən biri Azərbaycan xalqının birliyidir. Döyüş bölgələrində əldə etdiyimiz hərbi uğurlar bir tərəfdən Azərbaycan Respublikasının silahlı qüvvələrinin yüksək döyüş qabiliyyətinin, üstünlüyünün və mübarizə əzminin təsdiqidirsə, digər tərəfdən bu müvəffəqiyyət ölkəmizdə milli birliyin təntənəsi kimi dəyərləndirilməlidir. Düşmən böyük itkilər verərək tutduğu mövqeləri tərk etməyə məcbur olmuş, Azərbaycan ordusu isə mühüm strateji yüksəklikləri geri alaraq, əraziyə nəzarət imkanlarını möhkəmləndirmişdir. Beləliklə, Ermənistan ordusu atəşkəs rejiminə baxmayaraq, qoşunların təmas xəttindəki mövqelərimizə, döyüş bölgələrinə yaxın ərazilərimizdəki yaşayış məntəqələrinə, dinc əhaliyə qarşı fasiləsiz törətdiyi təxribatların layiqli cavabını almışdır. Halbuki, Azərbaycan münaqişənin tənzimlənməsi və atəşkəs rejimi ilə bağlı götürdüyü öhdəliklərə uyğun olaraq, uzun müddət təmkin nümayiş etdirmişdir. Dövlətimizin başçısı, Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, Azərbaycan münaqişənin sülh yolu ilə həllinin tərəfdarıdır. Lakin rəsmi Yerevanın yürütdüyü siyasət bir daha göstərdi ki, Ermənistan sülhün bərqərar olunmasını, işğal edilmiş torpaqlardan geri çəkilməyi istəmir və bütün fəaliyyətini mövcud status-kvonun saxlanılmasına, qoşunların təmas xəttində gərginliyin davam etdirilməsinə yönəltməkdədir. Prezident İlham Əliyevin Azərbaycan Respublikası Prezidenti yanında Təhlükəsizlik Şurasının bu ilin aprel ayının 2-də keçirilmiş iclasındakı çıxışında bir məqamı oxucuların diqqətinizə çatdırmaq istərdim. O demişdir: ***"Biz səbir, dözümlülük, konstruktivlik göstəririk. Baxmayaraq ki, biz 20 ildən artıqdır atəşkəs rejimində yaşayırıq. Yenə də çalışırıq ki, məsələ sülh yolu ilə öz həllini tapsın. Mən bunu dəfələrlə bəyan etmişəm, bu gün də deyirəm ki, biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Biz müharibə istəmirik. Biz istəmirik ki, qan tökülsün. İstəmirik ki, gənc insanlar həlak olsunlar. Biz istəmirik ki, anaların göz yaşları tökülsün. Azərbaycan, Ermənistan analarının göz yaşları tökülməsin. Ancaq biz öz haqqımızı tələb edirik".*** Prezidentimiz həmin çıxışında erməni işğalı altında olan bütün torpaqlarımızın geri qaytarılması istiqamətində dövlətimizin bundan sonra da siyasi iradə, qətiyyət və əzm nümayiş etdirəcəyini bir daha vurğulamışdır.

Aprel ayının ilk günlərində Azərbaycanın həyata keçirdiyi cavab aksiyaları - uğurlu hərbi əməliyyatlar dövlətimizin xarici siyasət, hərbi quruculuq istiqamətlərində məqsədyönlü fəaliyyətinin, o cümlədən təbliğat sahəsində müvəffəqiyyətlə reallaşdırdığı kompleks tədbirlərin məntiqi nəticəsidir. Bu tədbirlərin sayəsində nəinki Ermənistanın müvəqqəti "qələbə eyforiyası" kəskin ruh düşkünlüyü, hakimiyyətə münasibətdə növbəti etimadsızlıqla, sosial narazılıq dalğası ilə əvəzlənmiş, həm də ölkənin iqtisadi-siyasi problemlərini qabartmaqla böhran vəziyyətini daha da dərinləşdirmişdir. Son hadisələr onu da göstərdi ki, Ermənistanın hərbi və siyasi potensialı ilə bağlı deyilənlər təbliğat xarakterli mifdir və onun təsir imkanları sürətlə tükənməkdədir. Bundan başqa, erməni siyasətçilərinin etiraf etdiyi kimi, rəsmi Yerevan ideoloji mübarizə cəbhəsində də məğlubiyyətə uğramış, təklənmiş və təcrid olunmuşdur. Bir vaxtlar Azərbaycanı "Ermənistana qarşı işğalçılıq siyasətində" ittiham edən dövlətlər bu gün ölkəmizi haqlı tərəf kimi tanıyır, ərazilərinin bütövlüyünün bərpası uğrunda apardığı mübarizəni dəstəkləyirlər. Dünyanın bir sıra ölkələrində Azərbaycana dəstək aksiyalarının—mitinq və küçə yürüşlərinin keçirilməsi, aparıcı kütləvi informasiya vasitələrində münaqişə ilə bağlı gerçəklikləri əks etdirən, Ermənistanın ərazi iddialarının əsassız olduğunu göstərən materialların yayılması və s. Azərbaycan dövlətinin düzgün təbliğat strategiyası qurmasının və onu davamlı olaraq həyata keçirilməsinin göstəricisidir.

**– Məlumdur ki, bu gün Ermənistan monoetnik dövlətdir. Onun rəsmi və kilsə ideologiyası isə məhz şovinizm, ksenofobiya və ifrat millətçilik üzərində qurulmuşdur. Azərbaycanda isə vəziyyət tamamilə fərqlidir. Təkcə bu faktı göstərmək kifayətdir ki, Azərbaycan ərazilərinin erməni işğalından azad olunması uğrunda gedən mübarizədə ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri çiyin-çiyinə döyüşmüşlər. Onların arasında Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülənlər, vətənin yüksək orden və medalları ilə təltif olunanlar da vardır.**

– Həmin döyüşlər zamanı Azərbaycan ordusu şəhidlər vermişdir. Onların arasında ölkəmizdə yaşayan müxtəlif xalqların cəsur nümayəndələri də vardır. Azərbaycan hər birimizin Vətənidir. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə misilsiz şücaət göstərmiş bütün şəhidlərimizə Allahdan rəhmət, onların yaxınlarına və bütün Azərbaycan xalqına səbir diləyirik. Azərbaycan xalqı onların xatirəsini həmişə uca tutacaqdır.

Mahiyyət etibarı ilə radikal millətçiliyin, ksenofobiyanın istənilən təzahürü insanlara təlqin edilən etnik natamamlıq kompleksinin nəticəsidir. Hər hansı bir etnik toplum müstəqil ola, özünü təsdiqləyə, daxilində birlik və həmrəylik yarada bilmədikdə bütün çətinliklərin səbəbini "məkrli qonşularda" axtarmağa başlayır. Erməni siyasətçiləri "ümummilli ideologiyanı" da məhz bu kompleks—qonşu xalqlara münasibətdə nifrət, barışmazlıq, xof və total qorxu yaratmaq üzərində qurmuşlar. Nəticədə, tarixi Azərbaycan ərazisində yaradılmış Ermənistan Respublikası özünə "beynəlmiləlçi" imici qazandırmağa çalışsa da, reallıq bu iddiaların tamamilə əksini göstərməkdədir. Hazırda təkcə ermənilər deyil, milli azlıqda qalan molokanlar, yəhudilər, yezidi kürdlər, aysorlar da ölkəni kütləvi şəkildə tərk edirlər. Diqqət edin, rəsmi Yerevan özünü Rusiya Federasiyasının "ənənəvi müttəfiqi" adlandırsa da, bu gün ölkədə rusların sayı kəskin şəkildə azalmışdır. Molokan-ruslar cəmi bir kənddə qalmışlar. Yəhudi dini icması isə beş-on nəfərdən ibarətdir.

Azərbaycan isə tarixən çoxmillətli olmuş və beləcə də qalacaqdır. Ölkəmizdə yaşayan xalqların birliyi deklarativ şüar deyil, ortaq birgəyaşayış normalarına, qarşılıqlı hörmət və əməkdaşlıq prinsiplərinə söykənən tarixi ənənədir. Bu ənənələrin qarantı Azərbaycan Respublikasının Konstitusiyasıdır və dövlətin müvafiq qanunvericilik aktları ilə qorunur. Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində, ortaq mədəni dəyərlərin formalaşmasında və inkişafında həmin xalqların fəal iştirakı danılmazdır. Digər tərəfdən, Azərbaycan müxtəlif xalqların və fərqli dinlərin nümayəndələrinin əsrlər boyu əmin-amanlıq şəraitində mövcud olduqları nadir dövlətlərdən biridir və bu unikallığı qoruyub saxlaya bilmişdir. İndiyədək bu torpaqda nə milli, nə də dini zəmində qarşıdurmalar baş verməmiş, əksinə, işğalçılara qarşı mübarizədə vahid qüvvə kimi birləşərək birgə döyüşmüşlər. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin dediyi kimi, bu xalqlarımızın sarsılmaz birliyi dövlətimizin ən böyük sərvətidir.

**– Prezident İlham Əliyev dəfələrlə vurğulamışdır ki, multikulturalizm ənənələri və tolerantlıq Azərbaycan xalqının həyat tərzi, mənəvi-əxlaqi dəyəri, Azərbaycan Respublikasının siyasətidir. Təsadüfi deyildir ki, 2016-cı il ölkəmizdə "Multikulturalizm ili" elan edilmişdir.**

– "Multikulturalizm" anlayışı yaxın tarixlərdə ictimai-siyasi dövriyyəyə daxil olmuşdur. Bununla belə, qısa müddət ərzində dövlətdaxili, regional və beynəlxalq miqyaslarda xalqlararası və dinlərarası dialoqun əldə olunmasında, birgəyaşayış normalarının formalaşdırılmasına istiqamətləndirilmiş siyasi nəzəriyyə səviyyəsinə yüksəlmişdir. Lakin təəssüflər olsun ki, bəzi Avropa ölkələrində ayrı-ayrı siyasi maraqlar və korporativ yanaşmalar üzündən bu siyasi nəzəriyyənin tətbiqi etnik və dini problemləri kəskinləşdirmiş, qarşıdurmalara səbəb olmuşdur.

Əvvəla, qeyd edim ki, multikulturalizmin modelləri içərisində Qərb, Rusiya, Qafqaz və digər modellər vardır. Semantika baxımından "multikulturalizm" anlayışı "çoxmədəniyyətlilik" kimi yozulsa da, bir sıra modellərin qüsurlu cəhəti onların zahirən deklarativ xarakter daşıması, bu siyasətin ayrı-ayrılıqda milli və ya dini azlıqların cəmiyyətdən təcrid olunmasına, hüquqlarının məhdudlaşdırılmasına, zorla yerli etnomədəni şəraitə adaptasiya olunmasına və ya dominant xalq, mədəniyyət içərisində assimilyasiyasına yönəldilməsidir. Nəticədə, bu siyasətin icrası qarşı tərəfin etnik və dini müqavimətinin, radikalizm meyillərinin şiddətlənməsi ilə müşayiət olunur.

Azərbaycanda multikulturalizm siyasəti xarici ölkələrdəki analoqlarından tamamilə fərqlənir. O, tarixi ənənələrə söykənən milli və dini münasibətlər modeli olmaqla yanaşı, ilk növbədə mədəni müxtəlifliyin, xalqların milli-mədəni irsinin qorunmasına və inkişafına, onların qarşılıqlı faydalı inteqrasiyasına yönəldilmişdir. Müxtəlif etnik mədəniyyətlər arasında ənənəvi birgəyaşayış, qarşılıqlı hörmət prinsiplərinə söykənən bu model sivilizasiyalararası və mədəniyyətlərarası dialoq prosesində Azərbaycan Respublikasının çox uğurlu missiyası və töfhəsidir. Bu ənənələr "multikulturalizm" və "tolerantlıq" kimi təqdim olunsa da, heç də nə ötən yüzilliyin, nə də XXI əsrin siyasi-ideoloji yetirməsi deyildir, onun kökləri tarixin qədim çağlarına doğru uzanır. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində belə demişdir: ***"Azərbaycan multikulturalizmlə bağlı çox böyük işlər görüb. Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm yaşayır. Baxmayaraq bəzi siyasətçilər deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Bəlkə haradasa iflasa uğrayıb. Amma Azərbaycanda yaşayır və bu meyillər, bu ideyalar güclənir, ictimaiyyətdən də daha çox dəstək alır. Biz bu yolla gedəcəyik".*** Bu baxımdan, Azərbaycan Respublikasında multikulturalizm milli azlıqların dominant xalq və mədəniyyət içərisində assimilyasiyasına deyil, inteqrasiyasına yönəldilən effektiv vasitə olmaqla yanaşı, ölkədə vətəndaş birliyinə, tolerantlığa, müxtəlif etnik və dini qruplar arasında birgəyaşayış prinsiplərinin daha da möhkəmlənməsinə xidmət edir, daxili mədəni dinamikanı sürətləndirir, cəmiyyəti xarici təhdidlərə qarşı müqavimətdə səfərbər edir. Beləliklə, multikulturalizm, eyni zamanda, xalqların vahid ailə ətrafında birləşməsini təmin edən sosial fenomendir.

Faktiki olaraq, multikulturalizmin Azərbaycan modeli ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideyasının real təzahürüdür. Onun ***"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, azərbaycanlıyam!"*** ifadəsi mahiyyət etibarilə azərbaycançılıq ideyasının, multikulturalizmin Azərbaycan modelinin fəlsəfəsini dolğunluqla əhatə edir. Çünki Azərbaycanda yaşayan bütün millətlər Azərbaycan xalqının, onların etnik mədəniyyətləri isə bütövlükdə Azərbaycan mədəniyyətinin ayrılmaz hissəsidir. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə əsasən, mili, dini mənşəyindən, dilindən, irqindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşının hüquq və azadlıqlarına hörmət təsbit edilmiş, qəbul edilən bir sıra qanunlarda Azərbaycan ərazisində yaşayan bütün xalqların milli idenfikasiyasına dövlət tərəfindən təminat verilmişdir. Məhz onun təşəbbüsü ilə Azərbaycanda yaşayan xalqların ana dillərinin tədrisinə, mədəni irsinin qorunması və təbliğinə hüquqi zəmin yaradılmışdır.

**– Son dövrlərdə bəzi Qərb dövlətlərində islamofobiya meyilləri artmaqdadır. Məsələyə bu kontekstdə yanaşanda Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin yürütdüyü multikulturalizm siyasəti irqi, dini və milli ayrı-seçkiliyə, din pərdəsi altında gizlənən transmilli terrorçu qruplaşmalara qarşı mübarizədə böyük əhəmiyyət kəsb etməkdədir.**

– Yaxın və Orta Şərqdə, Avropada cərəyan edən hadisələr din amilindən hərbi-siyasi məqsədlər üçün istifadə edilməsinin beynəlxalq sülh və təhlükəsizlik üçün növbəti təhlükə mənbəyi olduğunu göstərdi. Qeyd etmək istərdim ki, dini konfessiyalara münasibətdə müxtəlif yanaşmalar - tarixi, etnoloji, filoloji, fəlsəfi və s. tərzlər mövcuddur. Politoloji müstəvidə yanaşmada din mahiyyət etibarı ilə güclü səfərbəredici, istiqamətləndirici xüsusiyyətlərə malik mükəmməl və sınanmış ideologiyadır. Son illərin təcrübəsi göstərir ki, hətta demokratik dövlətlərdə də din mənəvi dəyər sərhədlərindən çıxaraq siyasiləşmiş, dövlətlərin daxili və xarici siyasətinə, onların dövlət quruluşuna, ictimai münasibətlərə, o cümlədən milli və dinlərarası münasibətlərə təsir edən qüvvəyə çevrilmişdir. Bu isə öz növbəsində "multikulturalizmin təhlükəsizliyi" terminini, milli-mədəni və dini müxtəlifliyin qorunmasının zəruriliyi məsələsini siyasi-hüquqi gündəmə gətirmişdir. Beləliklə, bu anlayış qısa müddət ərzində milli təhlükəsizlik sisteminin tərkib hissələrindən birinə, vacib hüquqi fəaliyyət sahəsinə çevrilmişdir.

Əslinə qalsa, dini təhlükəsizlik ölkəmizin hüquqi və ictimai-siyasi məkanına Azərbaycan xalqı öz dövlət müstəqilliyini bərpa etdiyi dövrdə daxil olmuşdur. Sabiq postsovet respublikalarında, o cümlədən Azərbaycanda yaranmış ideoloji boşluq və xaos xaricdən idarə olunan milli və dini separatizm meyillərinin, destruktiv və totalitar təriqətlərin, yerli sosial bazası olmayan qeyri-ənənəvi dinlərin ölkəmizin ərazisinə nüfuz etdirilməsinə münbit şərait yaratmışdır. Məqsəd isə Azərbaycanda öz geosiyasi və geoiqtisadi maraqlarını təmin etmək, cəmiyyəti parçalamaq, əhaliyə təslimçilik, dövlət və hakimiyyət orqanlarına etimadsızlıq hisslərini aşılamaq olmuşdur.

Bir sıra dövlətlərin regionda olan maraqlarının təhlili göstərir ki, ölkəmizdə dini və etnik münasibətlərin təhlükəsizliyi məsələsi indi də aktuallığını saxlamış və Azərbaycan Respublikasının daxili siyasətində prioritet istiqamətlərdən birinə çevrilmişdir. Xaricdən idarə olunan belə təhdidlərə, ölkədə ictimai-siyasi sabitliyin pozulması cəhdlərinə qarşı effektiv siyasi-hüquqi tədbirlər içərisində ənənəvi tolerantlıq mühiti və multikulturalizmin Azərbaycan modeli mühüm yer tutur. Xatırladım ki, Prezident İlham Əliyev ötən ilin may ayının 18-də Bakıda keçirilmiş III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimindəki nitqində dövlətimizin multikulturalizm siyasətinə, ölkəmizin ictimai-siyasi və mədəni həyatında mühüm roluna, o cümlədən sülh və təhlükəsizliyin bərqərar olunmasında əhəmiyyətinə toxunaraq demişdir: ***"Bizim ölkədə multikulturalizm ənənələri hər zaman güclü olub... Multikulturalizmin alternativi yoxdur... Hesab edirəm ki, multikulturalizmi gələcəyi olmayan məfhum kimi təqdim etmək təhlükəlidir, əksinə səylərimizi dayandırsaq, dünyada vəziyyət daha da pisləşəcəkdir".***

Bütövlükdə, Azərbaycan Respublikasının milli təhlükəsizlik maraqları ilə bağlı olan təcrübəsinə əsaslanaraq deyə bilərik ki, xarici düşmən qüvvələr əsas hədəf kimi bu gün məhz xalqlarımız arasında tarixən formalaşmış milli birliyin pozulmasını, dini zəmində qarşıdurmalar yaradılmasını hədəf seçmişlər. Multikulturalizmin Azərbaycan modelinin tətbiqi və inkişaf etdirilməsi bu təhdidlərə ən rasional və səmərəli cavab, onların qarşısının alınmasına yönəldilən qabaqlayıcı tədbirlər sistemidir.

**– Bu gün dünyada Azərbaycanın multikulturalizm modelinə maraq artmaqdadır. Bu isə onun daha effektiv və düzgün siyasət olduğunu göstərir. Siz xarici siyasət müstəvisindən bunun ölkəmiz üçün əhəmiyyətini necə dəyərləndirərdiniz?**

– Bir daha vurğulamaq istərdim ki, Azərbaycan multikulturalizminin əsas xüsusiyyəti onun etnik və ya dini çoxluğun dominantlığından, azlıq üzərində təsirindən, öz mədəniyyətinin və inancının təlqinindən deyil, tarixi ənənələrə söykənən ortaq birgəyaşayış prinsipləri üzərində formalaşmasından, Azərbaycan xalqlarının bərabərhüquqlu dialoqundan qaynaqlanmasıdır. Bu müxtəlifliyin tətbiqi və təbliği Azərbaycan dövlətinin tarixi missiyalarındandır. Təcrübə göstərir ki, Azərbaycan Respublikasının yürütdüyü multikulturalizm siyasəti hazırda öz rasionalığını və demokratik prinsiplərə tam cavab verdiyini sübuta yetirmişdir.

Azərbaycanda tarixi mədəni müxtəliflik ənənələrinin inkişafı və möhkəmlənməsi üçün əlverişli siyasi-hüquqi şərait yaradılmış, multikulturalizm Azərbaycanda dövlət siyasəti səviyyəsinə qaldırılmışdır. Bu siyasət Azərbaycan dövlətinin daxili siyasətində mühüm istiqamətlərdən biri olduğu üçün təbii ki, ölkəmizin xarici siyasətinin formalaşmasına da öz təsirini göstərir. Dövlət başçısının məqsədyönlü siyasəti nəticəsində bu gün Azərbaycan özünün multikulturalizm modelini dünyaya təqdim edir. 2014-cü il fevral ayının 28-də yeni təsisat - Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi təsis olunmuş, Prezident İlham Əliyevin fərmanı ilə 2014-cü il may ayının 15-də isə hələlik dünyada yeganə olan Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Azərbaycanın multikulturalizm sahəsində topladığı təcrübə dünyanın 11 ölkəsinin nüfuzlu ali məktəblərində, Azərbaycanın isə 20 ali məktəbində tədris edilir. Azərbaycan rəhbərliyi ölkədə multikulturalizm mühitinin qorunması məqsədilə bir sıra nüfuzlu beynəlxalq qurumlarla - BMT, ATƏT, İƏT və Avropa İttifaqı ilə əməkdaşlığı da genişləndirməkdədir.

Bir məsələni də xatırlatmaq istərdim. 2008-ci ilin dekabr ayında Bakıda Avropa və ona qonşu regionların mədəniyyət nazirlərinin konfransı keçirilmişdir. Bu mötəbər tədbirdə dünyanın 48 ölkəsinin, o cümlədən 10 islam dövlətinin, 8 beynəlxalq təşkilatın, bir sıra beynəlxalq qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak etmişlər. Azərbaycan tərəfinin təşəbbüsü ilə ilk dəfə olaraq, "Mədəniyyətlərarası dialoqun təşviqinə dair Bakı Bəyannaməsi" qəbul edilmiş, sivilizasiyalar arasında dialoqun əldə olunması və inkişafına yönəldilən "Bakı prosesi"nin təməli qoyulmuşdur. 2015-ci il yanvar ayının 30-da isə Nyu-Yorkda - BMT-nin mənzil-qərargahında "Bakı prosesi" və 3-cü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təqdimat mərasimi keçirilmişdir. "Tarixi hadisə" adlandırılan həmin mərasimdə "Bakı prosesi"nin və forumun mühüm missiyası - dünyada sülh və əməkdaşlığın qorunması, qarşılıqlı faydalı dialoqun yaradılması prinsiplərinə xidmət edəcəyi xüsusi vurğulanmış, Azərbaycanın qlobal təşəbbüsü və dialoq yaratma təcrübəsi yüksək qiymətləndirilmişdir.

Fikirlərimi dövlət başçımızın bir sitatı ilə tamamlamaq istərdim. Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyində Prezident İlham Əliyev multikulturalizmin Azərbaycan modelinin missiyası və məqsədlərini bir daha açıqlayaraq demişdir: ***"Biz göstəririk ki, bütün millətlər, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar, yaşayacaqlar. Azərbaycan dövləti onları, onların maraqlarını, milli duyğularını, ləyaqətini qoruyur. Onlar bizim qardaşlarımızdır. Bizim gücümüz birliyimizdədir. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bu, bizim sərvətimizdir".*** Bu zəngin və əvəzsiz sərvətin, Azərbaycanın mulikultural dəyərlərinin və topladığı təcrübənin dünyada tanıdılması paralel olaraq Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına xidmət etməkdədir.

**Müsahibəni apardı:**
**Emin QASIMOV,**
**"Respublika".**